# Xalq yazıçısı Elçin – 80



***Bakı – 2023***

***(Daycest)***

Elçin Əfəndiyev 13 may 1943-cü ildə Bakı şəhərində, çağdaş milli nəsrimizin və dramaturgiyamızın banilərindən biri olan yazıçı İlyas Əfəndiyevin ailəsində dünyaya gəlib. Uşaqlıq çağlarından etibarən ədəbi mühitin içində, kitabların əhatəsində olub. Bir tərəfdən milli ədəbiyyat, folklor, o biri tərəfdən isə dünya ədəbiyyatı Elçinin daimi mütaliəsinin əsasına çevrilib. İlk hekayəsi 16 yaşı olarkən, 1959-cu ildə "Azərbaycan gəncləri" qəzetində dərc olunub. Bakı şəhərində orta məktəbi (1960), Bakı Dövlət Universitetinin filologiya fakültəsini (1965), Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun ədəbiyyat nəzəriyyəsi üzrə aspiranturasını (1968) bitirib, "Azərbaycan bədii nəsri ədəbi tənqiddə" mövzusunda namizədlik, "Ədəbiyyatda tarix və müasirlik problemi" mövzusunda doktorluq dissertasiyalarını müdafiə edib. "Min gecədən biri" adlı ilk hekayələr kitabı 1965-ci ildə çapdan çıxıb. Elçinin dünyanın müxtəlif dillərində 100-ə yaxın kitabı nəşr olunub, əsərləri bir çox dillərə tərcümə edilib. Yazıçının kitablarının ümumi tirajı 5 milyondan çoxdur. Elçinin əsərləri – hekayə, povest, roman, publisistika, ədəbi qeydlər və hətta fundamental elmi məqalələri, tədqiqatları işıq üzü gördüyü vaxtdan dərhal sonra, vətənində və digər ölkələrdə sürətlə yayılmış, sevilə-sevilə oxunmuş, neçə-neçə oxucu nəsli arasında əldən-ələ, zövqdən-zövqə ötürülərək davamlı bədii dəyərə malik olduğunu təsdiqləmişdir.

Azərbaycan mədəniyyətinin, Azərbaycandakı yeni estetik düşüncənin inkişafında hələ ki, yeganə dövr olaraq fərqləndirilən 60-cı illər nəslinin öncüllərindən olan Elçin elə bir sənətkardır ki, qələmə sarıldığı ilk vaxtdan etibarən üzərinə götürdüyü missiyadan, yaradıcı prosesdən heç bir miqyasda uzaq düşməmiş və elə buna görə də ədəbi varlığının ən yetkin məqamına yetişdiyi indiki günlərdə heyrətamiz dərəcədə zəngin ədəbi-bədii irs yaratmağa nail olmuşdur. Elə bir insan təsəvvür eləmək olmaz ki, Elçin yaradıcılığından bəhrələnməsin, onun ədəbi-bədii irsindən faydalanmasın.

Elçin ilk romanı “Mahmud və Məryəm”i 1982-ci ildə yazıb, həmin vaxta qədər yazıçı Azərbaycan ədəbiyyatının inkişafında hadisə sayılan bir çox əsərlərini – hekayələrini, povestlərini qələmə almışdır. Elçinin bu romanı Azərbaycan nəsrinin şah əsərlərindən sayılır. Həmçinin Elçinin “Ağ dəvə”, “Ölüm hökmü” əsərləri də milli nəsrimizin inkişafında mühüm yer tutur.

Elçin eyni zamanda Azərbaycan ədəbiyyatına bir-birindən gözəl hekayələr, povestlər bəxş edib. “Bir görüşün tarixçəsi”, “Toyuğun diri qalması”, “Poçt şöbəsində xəyal”, “Dolça” və başqa məşhur povestlərin adlarını qeyd etmək olar. Elçin 1989-1992-ci illər intervalında bir-birinin ardınca səkkiz birpərdəli pyes yazmışdır. Elçin dramaturgiyasında “Ah, Paris, Paris!...” (1992) pyesi xüsusi yer tutur. Çünki bu artıq yazıçının dramaturgiyaya olan iddiasının sübutudur.

Elçinin teatra gəlişi isə müəllifin 1995-ci ildə “Mən sənin dayınam” komediyasının Azərbaycan Dövlət Rus Dram Teatrındakı səhnə təcəssümünün premyerası ilə tarixə düşür. Və bundan sonra Elçinin pyesləri bir-bir ayaq açıb Azərbaycan teatrlarının səhnəsinə yeriyir, oradan isə böyük bir inam duyğusu ilə sərhədləri aşıb Avropa səhnələrinə gedir, dünyaya yayılır. Elçin teatrı Azərbaycan teatr mədəniyyətinin yeni mərhələsidir; elə bir mərhələsi ki, burada Azərbaycan teatrının ənənələriylə Avropanın modern teatr tendensiyaları bir anlığa görüşüb bir-birindən həməncə ayrılırlar.

Elçinin pyesləri Azərbaycan dramaturgiyasının yeni bədii-estetik üfüqüdür, yeni bədii-estetik paradiqmasıdır. Bu gün Elçin öz yaradıcılığının zirvəsinə yerləşsə də, bu hələ son deyil…

Xalq yazıçısı Elçinin 80 illik yubileyi münasibətilə F.Köçərli adına Respublika Uşaq Kitabxanası yazıçı haqqında fondunda mövcud olan çap əsərlərinin tammətnli ədəbiyyat siyahısını, Elçin haqqında deyilən dəyərli fikirlərin mətnini hazırlayıb oxucuların istifadəsinə təqdim edir.

## *Bayramımız qaldı*

*Öz dadı var hər bir yaşın,*
*Atdın cavanlığın daşın;*
*İstedadın yol yoldaşın –*
*70 yaşın oldu, Elçin!*

*Bu da ömrün bicliyidi –*
*Qocalığın gəncliyidi;*
*Ruhumuzun dincliyidi-*
*Ləzzətli bir yoldu, Elçin!*

*Ay maşallah olsun yerin –*
*Canın sulu, ağlın dərin,*
*Balaların, nəvələrin*
*Şəkər, şirin, baldı, Elçin!*

*Bərkimisən sözdən-sözə-*
*Gəlməyəsən yaman gözə;*
*Şuşada ad günümüzə -*
*Bayramımız qaldı, Elçin!*

***Fikrət Qoca***

# E.İ.Əfəndiyevin “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan mədəniyyətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Elçin İlyas oğlu Əfəndiyev “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilsin.

**İlham Əliyev**

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 12 may 2023-cü il*

## Görkəmli şəxsiyyətlər Elçin haqqında

Elçin çox istedadlı yazıçımızdır, gənc vaxtlarından çox dəyərli əsərlər yazıbdır. Amma son illər o, eyni zamanda teatr üçün də əsərlər yazıbdır. Deyəsən keçmişdə bu, olmamışdı. Çünki bu məsələ ilə əsasən onun atası məşğul olurdu və çox da gözəl əsərlər yaratmışdı. Elçin isə daha çox nəsr əsərləri yazırdı və dəyərli əsərlər yaratmışdı. Ona görə də gənc vaxtlarında 60-70-ci illərdə gənc yazıçılar, gənc şairlər sırasında idi. Hətta xatirimdədir ki, ilk dəfə Yazıçılar İttifaqının ən gənc katibi Elçin oldu, o, seçildi. Amma son zamanlar görürəm ki, o, eyni zamanda pyeslər də yazır və onlar bizim Milli Dram Teatrının səhnəsində tamaşaya qoyulur, uğurla göstərilir. Beləliklə də bizim teatr həyatı yaşayır.

Elçinin xalqımızın tarixi, taleyi və bədii irsi ilə bağlı olan, uzaq və yaxın keçmişimizin mənzərəsini canlandıran əsərləri XX əsr Azərbaycan ədəbiyyatında özünəməxsus yer tutur.

***Heydər Əliyev***

Siz uzun illər Heydər Əliyevlə birlikdə yüksək vəzifədə işləmisiniz. Onun sizə münasibəti çox müsbət olubdur, sizə böyük hörmətlə yanaşırdı. Artıq bir ildən çoxdur ki, biz birlikdə işləyirik. Mən də birgə fəaliyyətimizdən çox razıyam. Həm hökumətdə, həm də ictimai həyatda sizin böyük rolunuz vardır.

***İlham Əliyev***

Mənim müşahidəmə görə, Elçin müasir ədəbi gənclər içərisində inkişafa meyilli və ədəbiyyat cəbhəsindəki vəzifə və məsuliyyətini dərk edən cavanlardandır. Savad və bilikdən başqa, Elçin öz üzərində çox işləyən, ədəbiyyatımızın və yazıçılarımızın qeyrətini çəkən cavanlardandır. Təşkilat və yaradıcılıq məsələlərində yalnız özünü düşünmək kimi fərdi meyillər Elçinə yaddır. Onun yaxşı keyfiyyətlərindən biri özünə tələbkarlıqdır. Elçin təmiz, yığcam, savadlı, oxunaqlı hekayələri ilə bədii ədəbiyyatımıza gəlmişdir. Müxtəsərlik, aydınlıq və sadəlik onun ilk yazılarından özünü göstərən keyfiyyətlərdəndir.

***Mir Cəlal***

Adi məişət əhvalatlarını Elçin adilikdən çıxarıb xüsusiləşdirməyi, hətta qəribələşdirməyi bacarır. Buna da yazıçı öz xüsusi görmə, duyma, təhlil və qiymətləndirmə məharəti ilə nail olur. Bundan başqa, Elçinin labaratoriyasında yerində istifadə oluna bilən bir çox vasitələr də vardır. Hazırda keçmişi, ayrılıqda yuxunu, həqiqətlə xəyalı, real hadisələrlə nağılı, əfsanəni yanaşı təsvir etmək, daxili dialoqlardan, öz-özü ilə söhbətdən, dramaturji səhnələrdən, mozaik parçalardan, mübaliğə, şişirtmə üsulundan istifadə etmək onun təsvirlərinin emosional qüvvəsini artırır, fikrimizi də bir qədər hərəkətə gətirir

***Məmməd Arif***

Elçin ömrün uşaqlıq və yeniyetməlik dövrünü fərdi xarakter və temperamentin bünövrəsini təşkil edən bir dövr kimi göstərməyi sevir. Əgər qəhrəman ahıl, qocadırsa, yığcam poetic ricətlər, detallarla onun ötən günlərinə, gəncliyinə, gəncdirsə, yeniyetmə dövrünə, yeniyetmədirsə, uşaqlıq dövrünə qayıdır, şəxsiyyətin, xarakterin formalaşmasına ömrü boyu xüsusi təsir göstərən mühiti gözdən keçirir. Məhz bu poetic ricətlərin, xəyal və xatirələrin, yığcam detalların nəticəsidir ki, Elçinin obrazları canlı, ətli-qanlı çıxır və hər tipin, fərdin həyatı bütövlükdə oxucunun nəzərində canlana bilir.

***Məmməd Cəfər***

Elçin müasir həyatdan, uşaq vaxtlarından bələd olduğu adamlardan və mənzərələrdən yazır. Təsadüfü deyil ki, Abşeron bağları və kəndləri, Xəzər dənizi onun əsərlərində poetikləşdirilir. Bizi əhatə edən xarici aləm yaşadığımız evlər, gəzdiyimiz dəniz sahilləri, Bakı bağlarının sarı qumu, dadlı üzüm yetirən meynələri, çadır kimi kölgə salan tut ağacları, çılpaq qayaları Elçinin hekayə və povestlərində daim insan hisslərinin hərarətini, insan ürəyinin romantic çırpıntılarını əks edir. Bu təsvirlərin yığcamlığı və təbiiliyi bizi o qədər cəlb edir ki, gözlənilmədən özümüzü başqa aləmdə hiss edirik.

***Mirzə İbrahimov***

Elçin istedadlı yazıçılarımızdan biridir. Onun hekayə və povestləri, müasir ədəbiyyatımızın mühüm problemlərinə həsr olunmuş tədqiqat məqalələri sovet ədəbi tənqidinin, geniş oxucu kütlələrinin diqqətini cəlb etmişdir.

***Həmid Araslı***

Azərbaycan teatrında məxsusi məktəbini yaratmış, uzun illər bu teatrın mənəvi simasını müəyyənləşdirmiş İlyas Əfəndiyevin vəfatından sonra, təbii olaraq pyes qıtlığı yarandı. Amma bu qıtlıq təkcə teatrın repertuar kasadlığına yox, həm də mənəvi böhranına gətirib çıxara bilərdi. Elçinin pyesləri bu böhranın qarşısını ala bildi.

***Nərgiz Paşayeva***

Hörmətli Elçin! "Ölüm hökmü" romanını həvəslə, amma tələsmədən hər mətləbi, hər eyhamı içə-içə, ağıl və hiss süzgəcindən keçirə-keçirə oxudum. Yaşadığım acı günləri, qorxu və təlaş dolu illəri yenidən yaşadım və dərhal sənin yaşını düşünüb heyrətləndim. Çünki əzab, işgəncə, qorxu və təlaş dolu o illəri sən bir insan kimi yaşamamısan, amma yazıçı kimi yazmısan. Sən o illərin müsibətlərini o qədər təbii qələmə almısan ki, bunlar özündən yaşlıların söhbətlərindən deyil, yalnız şəxsi müşahidənin məhsulu ola bilər – qənaətinə gəlməmək olmur... Əzizim Elçin, sən qələminin qüdrətilə o illəri bir daha mənim qəlbimdən keçirib məni bir oxucu kimi sarsıda bildinsə, demək burada təsvir etdiyin hadisələrin təbiiliyinə görə, sənətin sehrinə və istedadın gücünə heyrətlənmək lazımdır. Beləliklə sən məni qələminlə bir daha istedadın gücünə və sənətin qüdrətinə inandırdın.

***Bəxtiyar Vahabzadə***

Həm Elçinin, həm də Anarın yaradıcılıq dünyalarının formalaşmasında Azərbaycan mənəvi mühitindən başqa, onların atalarının – XX əsr Azərbaycan ədəbiyyatı klassikləri Rəsul Rzanın, İlyas Əfəndiyevin böyük rolu olmuşdur.

***Çingiz Aytmatov***

Elçin yaradıcılığının əsas xüsusiyyətlərindən biri obrazların reallığı, dinamikliyidir. Hər obrazın konkret həyat mövqeyindən, sosial mənsubiyyətindən, mənəvi və psixoloji axarından asılı olaraq rəngarəng poetik vasitələr seçilir, detal və təfərrüatlar mühitə, obrazın siqletinə uyğunlaşdırılır, daha doğrusu, hər poetik ştrix situasiyanın özündən törəyir.

***Yusif Səmədoğlu***

Elçin ədəbiyyatşünaslığımızı bu gün də məşğul edən, ayrı-ayrı hallarda sənətşünaslıq və estetika elmləri ilə sərhədlənən problemləri iki aspektdə - həm bədii nəsrin təcrübəsində, həm də onun tənqidində diqqət və ehtiyatla araşdırır, müqayisələr aparır, bədii əsərləri və tənqidi fikirləri, müxtəlif müəlliflərin rəylərini tutuşdurur, nəticə çıxarır, yüksək səviyyəli elmi xülasələr əldə edir... Elçin saxtanı həqiqətdən, elmi-nəzəri mülahizəni doqmatizmdən, ehkamçı və subyektiv fikirlərdən seçməyi bacarır. Belə hallarda o cəsarətlə tənqid edir, amma ehtiram və təvazökarlıq cızığından da kənara çıxmır.

***Mehdi Məmmədov***

Elçin müasir Azərbaycan nəsrinin görkəmli nümayəndələrindən biridir. Bədii yaradıcılıq sahəsində onun nailiyyətləri göz qabağındadır. Elçin tənqidi fəaliyyətə də yazıçı kimi başlamışdır. Lakin tənqidi əsərləri öz canlılığı, kəsəri, aktuallığı ilə həmişə ümumi maraq oyatmışdır. O, müasirliyi aktuallıqla eyniləşdirməyi, hər iki estetik kateqoriyadan sənətkarlıq hesabına sui-istifadə etməyi müasir ədəbiyyatın ən yaralı yeri sayır və bədii ədəbiyyatın sənətkarlıq məsələlərini, tənqidini həmişə onlarla vəhdətdə aparır.

***Kamal Talıbzadə***

Elçin möcüzələri sevir, o, zərif və mehriban nağılçıdır, o, kədərli bir sehrkardır, bərq vuran, qızılı, gümüşü rənglərlə üstünlük verən bir impressionistdir...

***Lev Anninski***

Həyatın acı həqiqətlərindən danışanda da şirin, səmimi, xeyirxah dillə danışmaq ancaq sinəsində şəfqətli sənətkar ürəyi gəzdirənlərə qismət olur ki, Elçin də onların cərgəsindədir.

***Əziz Mirəhmədov***

Elçin rəmzdən, bədii-fəlsəfi şərtilikdən, kəskin məcazdan cəsarətlə istifadə edir, psixoloji əhval-ruhiyyəni detalda əyaniləşdirən mizanlar və cizgilər axtarır, onlara görümlü, baxımlı obrazlara çevirən epitetlər tapır. Məhz bu epitetlərin təşkil etdiyi bir mozaikada bəzən nağıl və hekayə, əfsanə və həqiqət bir-biri ilə barışa və qaynayıb-qarışa bilir...

***Yaşar Qarayev***

Yazıçı (şair) dövrün bədii-estetik inkişafı meylini görür və həmin səviyyəyə qalxa bilirsə, ədəbi prosesi qavrayır və onun axarına düşürsə, eyni zamanda, bu meyl və prosesin istiqamətləndirici işığını öz fərdi yaradıcılıq linzasında sındırmağı və toplamağı bacarırsa, o – sənətkardır. Bu, ümumi və fərdini bağlamaq qabiliyyətidir ki, həqiqətən yalnız sənətkarlıqla qazanılır. Elçin bu adı qazanmaq xoşbəxtliyinə çatıb.

***Tofiq Hacıyev***

Müasir Azərbaycan ədəbiyyatını onun hüdudlarından xaricdə ləyaqətlə təmsil edən imzaları düşünəndə Elçinin adı yada düşür. Onun ədəbi-ictimai mövqeyini bir sözlə ifadə etmək olar: fəallıq! Tükənməz xalqa xidmət duyğusundan başlanan intensiv bir daxili narahatlığın doğurduğu fəallıq zərurətini o bədii əsərlərində və cəsarətli tənqidində, çıxışlarında təlqin etməyə nail olur. Ədəbi tənqid Elçinin yaradıcılığına heç zaman laqeyd olmayıb. Onun əsərləri həmişə tənqiddən özünə qarşı səviyyəli münasibət tələb edib. Məlum, şablon, hamıya aid olunan meyarlarla Elçinin yaradıcılığı haqqında söz demək mümkün deyil.

***Nizaməddin Şəmsizadə***

Elçinin ədəbi-tənqidi məqalələri ədəbi-bədii fakta analitik münasibət nümunəsidir, mən bunu bütün məsuliyyəti ilə deyirəm, bu məqalələrdə təhlilin sosial planı da var, estetik planı da, kontekst həssaslığı da var, zaman həssaslığı da; milli əyanilik də var, tipoloji istinad da; normativliyi nəzərə almaq da var, fərdi üslub faktına ehtiram da; nəhayət, müəllifin öz təbiri ilə desək, iddia da var, imkan da. Şübhəsiz bunların hamısından da çox bir şey var, onu böyük hərflərlə yazıram: Vətəndaşlıq!...

***Nizami Cəfərov***

## Kitabları

Aqoniya, yoxsa təkamül? : XIX əsr Azərbaycan ədəbiyyatına bir nəzər. - Bakı : Təhsil, 2014. - 64 s.

Balaca qırmızı çiçək və Gilas qız : nağıl. - Bakı : Beşik, 2010. - 23 s.

Baş : roman. - Bakı : Təhsil, 2019. - 192 s.

Günay, Humay, bir dənə günəbaxan və qırt toyuğun cücələri : nağıl. - Bakı : Beşik, 2009. - 18 s.

Kitabi Dədə Qorqud aliliyi = The supremacy of "Kitabi-Dede Gorqud" = La grandeur de "Kitabi-Dede Gorqoud" = Бессмертие "Книги Праотца Горгуда" = Die majestat des "Kitabi Dede Korkut" = "كتاب دده قو رقود عالى ليبى ". - Bakı : Azərnəşr, 1999. - 142 s.

Kukla, yoxsa Aysu. - Bakı : Azərbaycan nəşriyyatı, 1998. - 48 s.

Küləyin, çinarın və qaranquş balasının nağılı : nağıl. - Bakı : Beşik, 2009. - 19 s.

Mahmud və Məryəm. - Bakı : Çinar-çap, 2003. - 208 s.

Mənə niyə gülürlər? : nağıl. - Bakı : Beşik, 2009. - 27 s.

Mənə niyə gülürlər? : hekayələr. – Bakı: Təhsil, 2019. – 96 s.

Qarabağ şikəstəsi : hekayə. - Bakı : Mütərcim, 2009. - 48 s.

Qəhrəman Aysu, qara pişik və cıqqılı siçanın nağılı : nağıl. - Bakı : Beşik, 2009. - 27 s.

## Haqqında kitablarda

**Adıgözəl S**. Elçin: romanlarının struktural-sosioloji təhlili. - Bakı : Qafqaz Universiteti, 2006. - 336 s.

Elçinlə ədəbiyyat söhbəti : Yaşarın xalq yazıçısı Elçin ilə müsahibəsi. - Bakı : Təhsil, 2012. - 200 s.

**Əlizadə M**. Elçinin teatr dünyası. - Bakı : Təhsil, 2014. - 312 s.

**Xəyal S.** Elçin : Yaradıcılığı üzərində düşüncələr. - Bakı : Azərnəşr, 2006. - 160 s.

## Əsərləri dövrü mətbuatda

3-cü "Axmısan hissimdə, duyğumda şeirim" : Qabilin şəxsiyyət və yaradıcılığı haqqında bir-iki söz // Ədəbiyyat qəzeti. - 2021. - 11 dekabr. - № 49. - S. 4-6.

Abbas Zamanovun amalı, əməli və əsərləri : Ədəbiyyat və cəsarət tərcümanı // Ədəbiyyat qəzeti. - 2021. - 13 fevral. - № 6. - S. 2-5.

Ağadadaşın kişi sözü : hekayə. "Abşeron hekayələri" silsiləsindən // Ədəbiyyat qəzeti. - 2021. - 17 aprel. - № 15. - S. 2-3.

Ağrının bədii ifadəsi : Frans Kafka və onun miniatürləri haqqında bir neçə söz // 525-ci qəzet. - 2019. - 9 fevral. - № 27. - S. 14. - Məqalə 9 avqust 2018-cil tarixində Bodrumda qələmə alınıb.

Ağrıyan şair : Məhəmməd Hadi mənimçün kimdir? // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 5.

Altmış beşlə üz-üzə : Abid Tahirli haqqında bir neçə söz // 525-ci qəzet. - 2020. - 28 noyabr. - № 163. - S. 16.

Axmısan hissində, duyğumda şeirim... : Qabilin şəxsiyyəti və yaradıcılığı haqqında bir-iki söz // 525-ci qəzet. - 2021. - 11 dekabr. - № 227. - S. 14-15.

Axtarışların uğurlu bəhrəsi : Mübariz Cəfərlinin "Əl" povesti haqqında qeydlər // Ədəbiyyat qəzeti. - 2010. - 24 sentyabr. - № 38. - S. 4.

Azərbaycan ədəbiyyatı bu gün parlaq dövrünü yaşamayır : Xalq yazıçısı Elçinin APA-ya müsahibəsi / söhbətləşdi M. Ağaoğlu // Ədəbiyyat qəzeti. - 2019. - 21 sentyabr. - № 32. - S. 16-18.

Bir fotoşəklin tarixçəsi : Mirzə İbrahimov - 100 // Ədəbiyyat qəzeti. - 2011. - 25 noyabr. - № 43. - S. 3.

Bizə qalan sənət // Azərbaycan. – 1990. - № 12. – S. 103-110.

Bu da bu cür həyatdır... : hekayə // 525-ci qəzet. - 2018. - 29 sentyabr. - № 169. - S. 14-15.

Bu, mənim üçün hər şeydən öncə alnıaçıqlıqdır : Xalq yazıçısı Elçinin müsahibəsi // Ədəbiyyat qəzeti. - 2021. - 17 iyul. - № 30. - S. 8-9.

Cavid intiqamı : Hüseyn Cavid haqqında bir neçə söz // Ədəbiyyat qəzeti. - 2022. - 22 oktyabr. - № 41. - S. 3.

Cism ilə Ruhun vəhdəti : Nizami Gəncəvi haqqında söz / Elçin // 525-ci qəzet. - 2021. - 2 oktyabr. - № 177. - S. 10-11.

Daxilimdə heç vaxt öz yaşımla barışmamışam : Xalq yazıçısı Elçinlə müsahibə / söhbətləşdi : G. Musa // Ədəbiyyat qəzeti. - 2021. - 23 oktyabr. - № 42. - S. 4-5.

Dənizə aparan yollar : rəssam haqqında yazıçı sözü // 525-ci qəzet. - 2020. - 7 mart. - № 27. - S. 14-15 ; Ədəbiyyat qəzeti. - 2020. - 7 mart. - № 9. - S. 16-17.

Elçin: “Haçansa bir külək əsəcək”: Elçinlə söhbət / söhbətləşdi: Hüseynov Ə. // Yeni fikir. – 1991. – 7 mart. – S. 2.

Elçin: "Ədəbiyyatın missiyası bitəndə bəşəriyyətin də sonu olacaq" : Xalq yazıçısı Elçinin bu günlərdə APA-ya verdiyi müsahibəni təqdim edirik // 525-ci qəzet. - 2019. - 21 sentyabr. - № 128. - S. 14-15.

Elçin: “Komediya və dramların kəsişdiyi yerdə”: Elçinlə müsahibə / müsahibə apardı: E. Axundova // Ədəbiyyat qəzeti . – 1994. – 28 oktyabr. – S. 4.

Ədəbi düşüncələr // Ədəbiyyat qəzeti. - 2020. - 10 oktyabr. - № 45. - S. 12.

Ədəbi düşüncələr // Ədəbiyyat qəzeti. - 2020. - 19 sentyabr. - № 40/41. - S. 16-19.

Ədəbi-elmi axtarışlar yolunda : Şirindil Alışanlının 70 illiyinə // 525-ci qəzet. - 2022. - 29 oktyabr. - № 198. - S. 12-13.

Ədəbiyyat və cəsarət tərcümanı : Abbas Zamanovun amalı, əməli və əsərləri // 525-ci qəzet. - 2021. - 13 fevral. - № 28. - S. 14-16, 23.

Ədəbiyyata sədaqətlə : İsa Həbibbəylinin 70 illiyinə bir neçə söz // Ədəbiyyat qəzeti. - 2019. - 12 oktyabr. - № 35. - S. 4 ; 525-ci qəzet. - 2019. - 12 oktyabr. - № 137. - S. 15.

Əkrəm, bu 70 hardan gəldi? : Dostum Əkrəm Qaflanoğlunun 70 illiyinə // Ədəbiyyat qəzeti. - 2021. - 3 iyul. - № 28. - S. 16-17.

Əlacsızlıq çox şeyin mahiyyətini başqalaşdırır : Xalq yazıçısı Elçinlə müsahibə / söhbətləşdi Fərid Hüseyn // 525-ci qəzet. - 2021. - 5 iyun. - № 98. - S. 12-13.

Ən böyük biclik, düzlükdür : Unudulmaz Əli Vəliyev haqqında bir neçə söz // Ədəbiyyat qəzeti. - 2021. - 28 may. - № 23. - S. 2-3.

Heydər Əliyev fenomeninin Azərbaycanın müasir tarixində rolu // Səs. - 2022. - 11 may. - № 81. - S. 15.

Həyatda heç bir məna yoxdur və olmayıb da : İnsanlar illüziyanın içində yaşayırlar və dünyada əbəs yerə məna axtarırlar : Xalq yazıçısı Elçinlə müsahibə / söhbətləşdi F. Hüseyn // 525-ci qəzet. - 2019. - 6 aprel. - № 59. - S. 10-11.

Humanitar təfəkkürün inikası : Şirindil Aslanovun yeni monoqrafiyası haqqında // Ədəbiyyat qəzeti. - 2012. - 17 fevral. - № 6. - S. 3. - Aslanov Ş. Müasir humanitar təfəkkür və Azərbaycan ədəbiyyatşünaslığı. - B.: Elm, 2011. - k-bına rəy.

İntihar: Gözəl kor qız haqqında hekayə // Ədəbiyyat qəzeti. – 2017. – 29 aprel. – S. 16-17.

Kərpickəsən kişinin kədərli dastanı : Şərif Ağayarın yaradıcılığı haqqında // 525-ci qəzet. - 2011. - 12 fevral. - S. 18.

Koroğlu ölməzliyi Türk mədəniyyəti və irsi fondunun hazırladığı kitab-albom üçün yazılıb // 525-ci qəzet. - 2018. - 8 sentyabr. - № 154. - S. 14-16.

Qəbirstanlıqda məhəbbət əhvalatı // Ədəbiyyat qəzeti. – 2016. – 26 noyabr. – S. 4-6.

Maarifçiliyin klassiki : Henrifildinq haqqında bir neçə söz // 525-ci qəzet. - 2018. - 1 dekabr. - № 213. - S. 16-17.

Maskalar silsiləsindən : böcəklər // Ədəbiyyat qəzeti. - 2018. - 7 aprel. - № 12. - S. 2-3.

Məmməd Orucun özü və sözü : 75 illik münasibətilə bir neçə söz // 525-ci qəzet. - 2022. - 12 mart. - № 46. - S. 12.

Mən belə bir qələbəyə inanmıram : Xalq yazıçısı Elçinlə müsahibə / söhbət.: Qan Turalı // Ədəbiyyat qəzeti. - 2020. - 8 fevral. - № 5. - S. 4-6.

Mənəviyyatın təmizliyi : Unudulmaz Musa Məmmədov haqqında bir neçə söz // 525-ci qəzet. – 2021. – 7 iyul. – S. 14.

Məryəmin missiyası : Məryəmin "Mənim gözəl dünyam" albomu haqqında // Ədəbiyyat qəzeti. - 2011. - 4 fevral. - № 4. - S. 3.

Mirvarid - hicran daşıdır : oxucusu ilə bir yerdə olan şairə // Ədəbiyyat qəzeti. - 2020. - 14 noyabr. - № 50. - S. 8-10.

Mütaliənin bizə məhrəm olan psixoloji mündəricəsi dəyişilib : Xalq yazıçısı Elçin ilə müsahibə / söhbətləşdi Qan Turalı // 525-ci qəzet. - 2020. - 8 fevral. - № 15. - S. 8-9.

N.S.- nın ayaqları : hekayə // Ədəbiyyat qəzeti. - 2022. - 15 oktyabr. - № 40. - S. 4-5.

Nizami - 60 : Gənclik və müdriklik, yaxud Nizami, bəs roman nə oldu? // Ədəbiyyat qəzeti. - 2019. - 20 aprel. - № 13. - S. 7.

O mənzilə yetməyə hələ çox qalıb : Sabir Rüstəmxanlının 75 illiyinə // Ədəbiyyat qəzeti. - 2021. - 22 may. - № 21/22. - S. 3.

Otuz altı ildən sonra : Şair Əhməd Cəmil haqqında fikirlər // Ədəbiyyat qəzeti. - 2018. - 5 may. - № 16. - S. 2.

Otuz bir ilin istisi : Şair və memar Çingiz Bektaş və sevimli Türkiyə haqqında söz // 525- ci qəzet. - 2010. - 6 fevral. - S. 20-21.

Rəssam Muxtar Manaflının həyatı, sənəti və bu dünyadan qaçışı : hekayə // Ədəbiyyat qəzeti. - 2017. - 2 dekabr. - № 44/45. - S. 6-7.

Sənətkarın taleyi (Ərəblinski) : Davamlı proloqdan və on beş şəkildən ibarət faciə // Azərbaycan. - 2012. - № 11. - S. 11-48.

Sirlərin bədii və elmi sərgüzəştləri : Kamal Abdullanın 70 illiyinə // 525-ci qəzet. - 2020. - 5 dekabr. - № 168. - S. 10.

Sosrealizm bizə nə verdi? : Sovet dövrü ədəbiyyatı haqqında. Məsələnin qoyuluşuna dair : birinci məqalə // Ədəbiyyat qəzeti. - 2010. - 22 dekabr. - N 41. - S. 3. ; ikinci məqalə. - 29 oktyabr. - N 42. - S.3. ; üçüncü məqalə. - 5 noyabr. - N 43. - S.1, 3. ; dördüncü məqalə. - 12 noyabr. - N 44. - S.3.

Söz azadlığı tənqidimizə nə verib? // Ədəbiyyat qəzeti. - 2017. - 21 oktyabr. - № 37. - S. 12-13. ; 28 oktyabr. - № 38. - S.2-4. ; 4 noyabr. - № 39. - S. 8-10.

Stalin : İki hissəli və səkkiz şəkildən ibarət faciəli fars // Azərbaycan : jurnal. - 2020. - № 1. - S. 17-52.

Şanapipik : Şeyx Hüsaməddin Ağa Lütfikar haqqında hekayə // 525-ci qəzet. - 2021. - 30 yanvar. - № 18. - S. 14.

Şeytan əməli : maskalar silsiləsindən // Ədəbiyyat qəzeti. - 2017. - 16 dekabr. - № 48/49. - S. 10-11.

Şeytan sonatası : (Absurd) : "Maskalar" silsiləsindən : pyes // Ədəbiyyat qəzeti. - 2017. - 30 sentyabr. - № 34. - S. 14-15.

Şəxsiyyət və ləyaqət : Təhsin Mütəllimovun 90 illiyinə // 525-ci qəzet. - 2022. - 30 aprel. - S. 14-15.

Şuşanın dağları başı dumanlı... // 525-ci qəzet. - 2021. - 20 mart. - № 52. - S. 10-12.

Taleyin yazısı : Ümm-ül-Baninin "Min bir gecə" nağılı // Ədəbiyyat qəzeti. - 2019. - 28 sentyabr. - № 33. - S. 2-5.

Taleyin yazısı : Ümm-ül-Banunun "Min bir gecə" nağılı // 525-ci qəzet. - 2019. - 2 oktyabr. - № 132. - S. 8-9, 10.

Tut Budağı, Ərik Budağı və Sarı Bülbülün nağılı // Ədəbiyyat qəzeti. - 2017. - 30 dekabr. - № 52. - S. 4-5.

Yalnız həqiqətin həqiqəti : Jan-Pol Sartrın eyni adlı əsəri haqqında söz // Azərbaycan. - 2012. - № 4. - S. 13-16.

Yazgülünün uçub getməyi : Baş vermiş inanılmaz hadisə haqqında hekayə // Ədəbiyyat qəzeti. - 2022. - 24 dekabr. - № 50/51. - S. 4.

Yazıçı, alim, pedaqoq : Mir Cəlal haqqında // 525-ci qəzet. - 2021. - 23 yanvar. - № 13. - S. 12-14.

## Haqqında dövrü mətbuatda


"Mahmud və Məryəm" filmi Azərbaycanın və Türkiyənin tanınmış sənət adamlarını bir araya gətirmişdir : filmin çəkilişi haqda məlumat // Ədəbiyyat qəzeti. - 2012. - 21 iyul. - № 27. - S. 2.

**Akimova E.** Hekayə diskurs kimi: Tut Budağı, Ərik budağı və Sarı bülbül // Ədəbiyyat qəzeti. - 2018. - 5 may. - № 16. - S. 10-11.

**Akimova E**. Tarixi gerçəkliyi sərbəst interpretasiya - "Baş" roman // Ədəbiyyat qəzeti. - 2016. - 9 yanvar. - № 1. - S. 16-17.

**Akimova E.** Polemikaya sözardı yaxud öyünə biləcəyimiz ədəbiyyat // Ədəbiyyat qəzeti. - 2017. - 25 noyabr. - № 42/43. - S. 10-11.

**Anar.** Yazıçının yaşı olmur: Elçin - 70 // Ədəbiyyat qəzeti. – 2013. – 3 may. - № 16. – S. 3.

**Anar.** Elçinin zarafatları : Elçinin yubileyinə qeyri-yubiley yazısı : Elçin Əfəndiyev - 75 / Anar // Ədəbiyyat qəzeti. - 2018. - 5 may. - № 16. - S. 3.

**Anar.** El üçün yaşayıb yaradan Elçin // Ədəbiyyat qəzeti. – 2003. – 9 may.

**Aras O**. Elçinin hekayələri // Ədəbiyyat qəzeti. - 2020. - 9 may. - № 13. - S. 17.

**Aydınoğlu T**. Xalq yazıçısı Elçinin yaradıcılıq yolu akademik araşdırma güzgüsündə : Milli Kitabxanda ölkənin tanınmış ziyalılarının iştirakı ilə keçirilən təqdimat mərasimində akademik Nizami Cəfərovun "Elçin. Yazıçının yaradıcılıq yolu" kitabının işıq üzü görməsi ədəbi - mədəni həyatımızın diqqətçəkən hadisəsi kimi dəyərləndirildi // Xalq qəzeti. - 2017. - 29 oktyabr. - № 237. - S. 4.

Azərbaycanın Xalq yazıçısı Elçinin 70 illik yubileyi qeyd edildi // Ədəbiyyat qəzeti. - 2013. - 17 may. - № 18. - S. 6.

**Azəri L.** Azərbaycançılıq ideologiyasına xidmət edən əsər : Xalq yazıçısı Elçinin Misirdə nəşr olunmuş "Baş" romanının təqdimatı keçirildi // Mədəniyyət. - 2018. - 6 iyun. - № 44. - S. 5.

**Azəri L.** Böyük sənətkar haqqında miniatür kitab : Xalq yazıçısı Elçinin "Mən gedirəm, ağlama... Rəşid Behbudovun sənəti və şəxsiyyəti" kitabının təqdimatı keçirildi // Mədəniyyət. - 2015. - 16 dekabr. - № 98. - S. 3.

**Azəri L**. Xalq yazıçısı Elçinin əsərləri bütün dövrlər üçün aktualdır : Görkəmli ədibin yaradıcılığına həsr olunmuş kitabın təqdimat mərasimi keçirildi // Mədəniyyət. - 2017. - 27 oktyabr. - № 84. - S. 3.

**Babasoy Ü.** Zamanı qabaqlamağın estetikası : Elçin Əfəndiyev - 75 : "Qatar. Pikasso. Latur. 1968" hekayəsi // Ədəbiyyat qəzeti. - 2018. - 5 may. - № 16. - S. 21.

**Babayev A.** Görkəmli qələm sahibi haqqında düşüncələr // Ədəbiyyat qəzeti. – 2013. – 12 aprel. - № 13. – S. 3.

**Babayev B**. Elçinin "Baş" romanı haqqında qiymətli tədqiqat əsəri : professor Nizami Tağısoy "Elçinin "Baş" romanı struktur-funksional təhlil müstəvisində" monoqrafiya // Ədəbiyyat qəzeti. - 2018. - 13 yanvar. - № 1. - S. 27.

**Babayev M.** Con Steynbek və Elçin yaradıcılığı müqayisəli kontekstdə // Ədəbiyyat qəzeti. – 2009. – 14 avqust. – S. 5.

**Bəhmənli V.** Kamil yazıçı və şəxsiyyət obrazı : esse : Elçin Əfəndiyev - 75 // Ədəbiyyat qəzeti. - 2018. - 5 may. - № 16. - S. 22.

**Cabbarov N.** Keçmişdə yaşayan bu gün // Bakı. – 1990. – 21 iyun. – S. 3.

**Cabbarov N.** Romantika və əxlaqi kamillik // Ədəbiyyat və incəsənət. – 1984. – 13 aprel. - № 15.

**Cəfərov N.** Klassiklərdən müasirlərə qədər // Azərbaycan gəncləri. – 1987. – S. 4.

**Cəfərov N.** Böyük ədəbi missiya : Elçin Əfəndiyev - 75 // Ədəbiyyat qəzeti. - 2018. - 5 may. - № 16. - S. 8.

**Cəfərov N**. Despotun portreti : Xalq yazıçısı Elçinin "Stalin" pyesi haqqında // Ədəbiyyat qəzeti. - 2020. - 7 mart. - № 9. - S. 24.

**Cəfərov N**. "Elçin. Yazıçının yaradıcılıq yolu"na ön söz // Ədəbiyyat qəzeti. - 2017. - 5 avqust. - № 28. - S. 4-5.

**Cəfərov N**. Klassikin müasirliyi : Akademik Nizami Cəfərovun "Elçin.Yazıçının yaradıcılıq yolu"monoqrafiyası haqqında // Ədəbiyyat qəzeti. - 2017. - 23 sentyabr. - № 33. - S. 15.

**Cəfərov N.** "Altmışıncı", yetmişinci illərdə və ya "Bu dünyada qatarlar gedər" : "Elçin: Yazıçının yaradıcılıq yolu" silsiləsindən dördüncü yazı // Ədəbiyyat qəzeti. – 2017. – 27 may. – S. 20.

**Cəfərov N.** "Altmışıncı", yetmişinci illərdə və ya "Bir görüşün tarixçəsi" : "Elçin: Yazıçının yaradıcılıq yolu" silsiləsindən beşinci yazı // Ədəbiyyat qəzeti. – 2017. – 3 iyun. – S. 12.

**Cəfərov N.** Səksənlərdən doxsanlara yaxud "Bülbülün nağılı" : "Elçin: yazıçının yaradıcılıq yolu" silsiləsindən yeddinci yazı // Ədəbiyyat qəzeti. - 2017. - 22 iyul. - № 26. - S. 6-7.

**Cəfərov N**. Tarixin müasirliyi və ya "Baş"ın metafizikasından "O"nun apokalipsinə // 525-ci qəzet. - 2015. - 24 oktyabr. - S. 18-19.

**Cəfərov N**. Yeni ədəbiyyatın sorağında yaxud "Min gecədən biri" : "Elçin: Yazıçının yaradıcılıq yolu" silsiləsindən birinci yazı // Ədəbiyyat qəzeti. - 2017. - 6 may. - № 16. - S. 8-9.

**Cəmil A**. Yeni düşüncənin Elçini : Elçinin doğum gününə // Ədəbiyyat qəzeti. - 2019. - 11 may. - № 16. - S. 3.

**Cəlilova F**. Teatr əhlinin xudpəsənt cazibəsi // Kaspi. - 2019. - 18 aprel. - № 69. - S. 10.

**Dadaşov A**. Elçinin ekran əsərləri : Elçin - 65 // Ədəbiyyat qəzeti. - 2008. - 16 may. - S. 5.

**Dünyaminqızı Q**. Xüsusi rakursda görünən yazıçı : Onun gizlətmək, unutmaq istədiyi, xəcalət çəkdiyi bircə sözü də yoxdur // Kaspi. - 2017. - 12 may. - № 83. - S. 6.

**Elaydi Ə**. Elçinin "Baş" romanı: bədii üslub və janr özünəməxsusluğu kontekstində // 525-ci qəzet. - 2020. - 11 dekabr. - № 172. - S. 14-15.

**Elcanlı S**. Köhnə kədər karvanı : Elçinin "Baş" romanı haqqında ədəbi və əzablı düşüncələr // Ədəbiyyat qəzeti. - 2016. - 30 yanvar. - № 4. - S. 20-21. ; 6 fevral. - № 5. - S. 11.

**Elcanlı S.** Bir cümləlik etiraf və ya adinin qeyri-adiliyi // Ədəbiyyat qəzeti. – 2008. – 19 sentyabr. – S. 7.

**Elcanlı S.** Zirvə yollarının xoşbəxt adamı : Elçin Əfəndiyev - 75 // Ədəbiyyat qəzeti. - 2018. - 5 may. - № 16. - S. 24.

Elçin - 75 // Savalan. - 2018. - 18-21 may. - № 30. - S. 2.

E. İ. Əfəndiyevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (11 may 2018-ci il) // Respublika. - 2018. - 12 may. - № 105. - S. 1.

Elçin müəllim öz yaradıcılığı ilə bu gündə Azərbaycan müasir ədəbiyyatının klassikidir : "Dördüncü divar" layihəsinin Elçin müəllimin yetmiş beş iliyinə həsr olunan xüsusi buraxılışı : Teatr və kino xadimləri ilə müsahibə / söhbətləşdi S.Əşrəf // Ədəbiyyat qəzeti. - 2018. - 5 may. - № 16. - S. 28-29.

**Eyvazlı G.** Elçin Əfəndiyev - 75 // Ədəbiyyat qəzeti. - 2018. - 5 may. - № 16. - S. 31.
**Əbdüləzizov Ə.** Ömür də şam kimidir // Xalq qəzeti. – 2000. – 5 yanvar. – S. 5.

**Ələkbərzadə M.** “Qatil” dünya dramaturgiyasına girə biləcək bir əsərdir : Rejissor Mehriban Ələkbərzadə ilə müsahibə / söhbətləşdi S.Əşrəf.  Elçin Əfəndiyev - 75 // Ədəbiyyat qəzeti. - 2018. - № 16. – S. 23.

**Əlişanoğlu T**. Yazıçının zamanı və zamansızlığı : Elçin Əfəndiyev - 75 // Ədəbiyyat qəzeti. - 2018. - 5 may. - № 16. - S.19.

**Əlişanoğlu T**. Elçin yaradıcılığı akademik Nizami Cəfərovun təfsirində : Akademik Nizami Cəfərovun çapdan çıxmış "Elçin. Yazıçının yaradıcılıq yolu" kitabı haqqında // Ədəbiyyat qəzeti. - 2017. - 18 noyabr. - № 41. - S. 10-11.

**Əliyev M**. Kitab haqqında kitab : professor Nizami Tağısoy "Elçinin "Baş" romanı struktur-funksional təhlil müstəvisində" kitabı haqqında // Ədəbiyyat qəzeti. - 2017. - 14 oktyabr. - № 36. - S. 20.

**Əlizadə M.** Açın pərdəni: Elçin gəlir : kiçik ixtisarla : Elçin Əfəndiyev - 75 // Ədəbiyyat qəzeti. - 2018. - 5 may. - № 16. - S. 26-27.

**Əlizadə M.** Elçinin teatr planeti // 525-ci qəzet. – 2018. – 5 may. – S. 10-11.

**Əlizadə M.** Sözlü adam // Mədəniyyət. – 2009. – 2 oktyabr. – S. 12.

**Əlizadə M.** Zamanın absurdu və yaxud absurd zamanı : (I məqalə) // 525-ci qəzet. - 2019. - 22 may. - № 78. - S. 14-15 ; 25 may. - № 80. - S.14.

**Əlioğlu Ç**. Abşeronla vidalaşma : Elçin Əfəndiyevə həsr olunur : lirik poema // Ədəbiyyat qəzeti. - 2018. - 5 may. - № 16. - S. 7.

**Hacı K.** Sirri bilənlərin qeybə çəkilməsi : Xalq yazıçısı Elçinin yaradıcılığı üzərinə qısa gəzişmələr : Elçin Əfəndiyev - 75 // Ədəbiyyat qəzeti. - 2018. - 5 may. - № 16. - S.30.

**Hacıyev A.** Təzə rənglər, təzə duyğular aləmi: Elçinin "Bülbülün nağılı" kitabını oxuyarkən // Azərbaycan gəncləri. – 1984. – 1 may.

**Hacıyev T.** Adiliyin qeyri-adi bədii təcəssümü // Xalq qəzeti. – 2003. – 14 may. – S. 7.

**Hacızadə A**. Xalq yazıçısı Elçinin "Qatil" əsəri Moskvada Türkiyə teatrının quruluşunda göstərilmişdir // Xalq qəzeti. - 2009. - 30 mart. - S. 7.

**Həbibbəyli İ**. Canlı, oynaq və yumorla qanadlanan nağıllar : Xalq yazıçısı Elçinin "Mənə niyə gülürlər" kitabı haqqında qeydlər // 525-ci qəzet. - 2020. - 18 yanvar. - № 6. - S. 16, 23.

**Həbibbəyli İ.** Yeni ədəbiyyatın və müasir ədəbi tənqidin görkəmli yaradıcısı : Elçin Əfəndiyev - 75 // Ədəbiyyat qəzeti. - 2018. - 5 may. - № 16. - S.16-18.

**Həbibbəyli İ.** Həyatın gerçəkliyi və təhkiyənin nağılı // Ədəbiyyat qəzeti. – 2017. – 27 may. – S. 24.

Həqiqət yalnız bizim xəyallarımızdadır : "Sevdiyim əsər" layihəsində Nizaməddin Şəmsizadə ilə Elçinin "Baş" romanı haqqında söhbət / söhbətləş: F. Hüseyn // Kaspi. - 2019. - 20 iyul. - № 130. - S. 21-22.

**Həsənov H.** Elçinin düşüncələr doğuran düşüncələri // Ədəbiyyat qəzeti. – 2002. – 11 yanvar. - № 2. – S. 2.

**Hüseynoğlu S.** İlləri ədəbiyyat tarixinə çevirən yazıçı // Ədəbiyyat qəzeti. – 2013. – 14 iyun. – S. 4.

**Hüseynoğlu S.** Yazıçı və zaman: Akademiyada xalq yazıçısı Elçinlə ədəbiyyat söhbəti // Ədəbiyyat qəzeti. – 2012. – 9 iyun. – S. 3.

**Hüseynoğlu S**. Zirvənin sirri : Xalq yazıçısı Elçin Əfəndiyevin yaradıcılığı haqqında // Ədəbiyyat qəzeti. - 2017. - 3 iyun. - № 20. - S. 25.

**Hüseynoğlu S.** Onu ürəyimcə yaşamaq üçün // Ədəbiyyat qəzeti. - 2018. – 5 may. – № 16. - S. 22.

Xalq yazıçısı Elçinin "Baş" romanının təqdimatı olub // Ədəbiyyat qəzeti. - 2018. - 2 iyun. - № 21.- S.3.

Xalq yazıçısı Elçinin "Baş" romanı Moskvada nəşr olunub // Ədəbiyyat qəzeti. - 2017. - 1 aprel. - № 11. - S. 25.

**Xanoğlan V**. Elçin yaradıcılığı dünya meridianlarında : Azərbaycanın Xalq yazıçısı Elçin Əfəndiyev haqqında // Xalq qəzeti. - 2013. - 5 may. - № 96. - S. 9.

**Xanoğlan V**. Şəxsiyyətinə sadiq müdrik sənətkar : yazıçı Elçin Əfəndiyev haqqında // Xalq qəzeti. - 2017. - 13 may. - № 101. - S. 9.

**Xəlil Z**. Canlı, oynaq və yumorla qanadlanan nağıllar : Xalq yazıçısı Elçinin "Mənə niyə gülürlər" kitabı haqqında qeydlər // Ədəbiyyat qəzeti. - 2020. - 15 fevral. - № 6. - S. 6-7.

**Xəlilzadə F**. Möhtəşəm və sirli qəsr : Bu, Xalq yazıçısı Elçinin 10 cilidliyidir // Mədəniyyət. - 2011. - 28. 10. - № 80. - S. 7.

**İbrahimov M.** Nəsrin yeni yollarında: Elçinin povestləri və hekayələri barədə mülahizələr // Ədəbiyyat və incəsənət. – 1978. – 21 yanvar. – S. 5.

**İftixar.** Xalq yazıçısı Elçinə ötən ilin gecikmiş məktubu // Mədəniyyət. - 2014. - 14 may. - **№ 36**. - S. 7.

**Kamal R.** Elçinin gümüşü günü : Elçin Əfəndiyev – 75 // Ədəbiyyat qəzeti. - 2018. - 5 may. - № 16. - S.15.
Kamal Abdulla: Kosmik fəzada hamı eyni çəkidə olur : Dövlət xadimi, yazıçı Kamal Abdulla ilə müsahibə / söhbətləşdi S.Amin: Elçin Əfəndiyev - 75 // Ədəbiyyat qəzeti. - 2018. - 5 may. - № 16. - S. 9.

**Kərimov L**. Elçinin "Şekspir"i "Üns" yaradıcılıq səhnəsində // Xalq qəzeti. - 2009. - 28 iyun. - S. 7.

**Kərimov İ.** Elçinin dramaturji yaradıcılığı // Azərbaycan müəllimi. – 2003. – 23-29 may.

**Qan Turalı.** Söz azadlığında düşən dolu və ya ədəbi sətəlcəmlik diaqnozu : Xalq yazıçısı Elçinin "Ədəbiyyat qəzeti"ndə çap olunmuş "Söz azadlığı bizə nə verdi" məqaləsi haqqında // Ədəbiyyat qəzeti. - 2017. - 11 noyabr. - № 40. - S. 10-11.

**Qədir C**. Xalq yazıçısı Elçin : "Yazıçı ilə dialoq"da deyilənlər : Oktyabrın 16-da Bakı Kitab Mərkəzində "Yazıçı ilə dialoq" layihəsi çərçivəsində Xalq yazıçısı Elçinlə görüş təşkil edilmişdi // 525-ci qəzet. - 2018. - 20 oktyabr. - № 184. - S. 15.

**Qiyas Ə.** Nəsrlə dramaturgiyanın qovuşduğu məqam : Elçin Əfəndiyev - 75 // Ədəbiyyat qəzeti. - 2018. - 5 may. - № 16. - S.20.

**Qoca F.** Altmış yaşın mübarək: şeir // Ədəbiyyat qəzeti. – 2003. – 16 may. – S. 3.

**Qoca F.** Xalq yazıçısı Elçinə məktub : Elçin Əfəndiyev - 75 // Ədəbiyyat qəzeti. - 2018. - 5 may. - № 16. - S. 4.

**Quliyev V.** Dünəndən bugünə və gələcəyə // Kommunist. – 1987. – 24 yanvar.

**Qurbanov Ş.** Milli faciənin bədii salnaməsi: “Ölüm hökmü” romanını oxuyarkən // Azərbaycan müəllimi. – 1990. – 28 dekabr.

**Mahmud T.** Yazıçı Elçin haqqında söhbət // Pioner. – 1983. - № 1. – S. 12.

**Məcid R.** Yazıçının sərvəti // 525-ci qəzet. – 2018. – 12 may. - № 85. – S. 9.

**Mənsimli N.** Əsəri ədəbi cərəyan yaratmır, ədəbi cərəyanı əsər yaradır // Mədəniyyət. – 2010. – 29 yanvar. - S. 12.

**Məmmədəliyeva L**. Elçinin "Bütün dərdlərdən azad qoca Şeyxin nağılı"nda real həyatımızın əksi : Nağıllar silsiləsindən // Ədəbiyyat qəzeti. - 2021.- 22 may. - № 19/20. - S. 15.

**Məmmədov A.** Ömür əbədi axtarışdır: Elçinin ikicildliyi haqqında qeydlər // Bakı. – 1988. – 16 may. - S. 3.

**Məmmədzadə R.** Elçin portreti : Xalq yazıçısı, istəklimiz Elçin müəllimin adına : şeir // Ədəbiyyat qəzeti. - 2018. - 5 may. - № 16. - S. 12.

**Məsud A**. Ədəbiyyat adamı : Elçin Əfəndiyev haqqında // Respublika. - 2018. - 15 may. - № 107. - S. 5.

**Mirələmov H.** Könül sevgisi və ürək genişliyilə : Elçin Əfəndiyev - 75 // Ədəbiyyat qəzeti. - 2018. - 5 may. - № 16. - S.13.

**Mirməmməd G**. Tanışlığın beş çaları : müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, görkəmli dövlət və ictimai xadim Elçin Əfəndiyev haqqında // Mədəniyyət. - 2016. - 13 may. - № 37. - S. 7.

**Müşfiq Ş**. Doğma yazıçı, sevimli hekayələr... // 525-ci qəzet. - 2020. - 13 may. - № 43. - S. 13.

**Müşfiq Ş.** Ədəbi düşüncənin və bədii sözün ucalığı // 525-ci qəzet. – 2018. – 14 aprel. – S. 10-11.

**Mütəllimov T**. Ləyaqət borcu : Xalq yazıçısı Elçinin "Cəhənnəm sakinləri" pyesi haqqında // Ədəbiyyat qəzeti. - 2017. - 25 noyabr. - № 42/43. - S. 15.

**Nəsib V**. Zümrüd bəhəri, zümrüd baharı : Elçin Əfəndiyev - 75 // Ədəbiyyat qəzeti. - 2018. - 5 may. - № 16. - S.13.

**Nəzirli K.** Yazıçının şəxsiyyəti : Elçin Əfəndiyev - 75 // Ədəbiyyat qəzeti. - 2018. - 5 may. - № 16. - S. 12.

**Osmanoğlu M.** Başın qayıdışı : Elçin Əfəndiyev - 75 // Ədəbiyyat qəzeti. - 2018. - 5 may. - № 16. - S. 14-15.

**Paşayev Q.** Qürur duyduğum yazıçı : Elçin Əfəndiyev - 75 // Ədəbiyyat qəzeti. - 2018. - 5 may. - № 16. - S.20.

**Paşayev Q**. Elçinin sənət dünyası // Ədəbiyyat qəzeti. - 2007. - 7 sentyabr. - S.3.

**Paşayev Q**. Elçinin sənət dünyası : Azərbaycanın Xalq yazıçısı Elçin Əfəndiyev haqqında // Respublika. - 2013. - 7 may. - № 96. - S. 12.

**Paşayev Q**. İtirdiklərimiz və qazandıqlarımız : Xalq yazıçısı Elçinin "Sosrealizm bizə nə verdi?" silsilə məqalələrini ("ƏQ", N41-44) oxuyarkən // Ədəbiyyat qəzeti. - 2010. - 17 dekabr. - N 49. - S. 1-2.

**Paşayev Q.** Ürəkdən gələn sözlər // Ədəbiyyat qəzeti. – 2008. – 16 may. – S. 3.

**Rəhimli İ**. El üçün yazan Elçin : Elçin Əfəndiyev - 75 // Ədəbiyyat qəzeti. - 2018. - 5 may. - № 16. - S. 8.

**Rəsulzadə L**. Əfəndi Elçinin əfəndiliyi // 525-ci qəzet. - 2020. - 10 iyun. - № 50. - S. 14-15, 20.

**Rövşən R.** Sözlər : Elçin Əfəndiyevə həsr olunmuş şeir // Ədəbiyyat qəzeti. - 2018 - 5 may. - № 16. - S. 9.

**Rüstəmxanlı S.** Müdriklik zirvəsi : Elçin Əfəndiyev - 75 // Ədəbiyyat qəzeti. - 2018. - 5 may. - № 16. - S. 5.

**Rüstəmzadə A**. Xarakterlər ustası : Xalq yazıçısı Elçinin yaradıcılığının oxucu sevgisi qazanması əsas səbəbi əsərlərindəki təbiilik və səmimiyyətdir // Mədəniyyət. - 2017. - 12 may. - № 36. - S. 11.

**Seyidzadə C**. Qatarlar və Çəhrayı qız : hekayə : Elçin Əfəndiyev - 75 // Ədəbiyyat qəzeti. - 2018. - 5 may. - № 16. - S.18.

**Səxavət S**. Yaşıl pencəkli oğlan : Elçin Əfəndiyev - 75 // Ədəbiyyat qəzeti. - 2018. - 5 may. - № 16. - S. 21.

**Sərvaz.** Həyat həqiqəti ədəbiyyatda son dərəcə vacib məsələdir : Elçinin "Sosrealizm bizə nə verdi?" mini-monoqrafiyasının müzakirəsinə həsr olunmuş dəyirmi masa keçirildi // Ədəbiyyat qəzeti. - 2011. - 18 fevral. - № 6. - S. 3.

**Sultanova S**. Ekranlaşdırılmış ədəbi əsərlər : Layihədə Elçinin "Toyuğun diri qalması" povesti əsasında çəkilmiş filmi təqdim edirik // Ədəbiyyat qəzeti. - 2019. - 18 may. - № 17. - S. 24.

**Süleymanlı M.** Dost haqqında söz // Ədəbiyyat qəzeti. - 2004. – 13 fevral.

**Şahmərdan K.** "Məhəbbətsiz bu həyat cəhənnəmdir" : Kamran Şahmərdanla müsahibə / müsahibəni apardı: A. İsmayıloğlu. Elçinin "Teleskop" pyesinin tamaşası haqqında // Ədəbiyyat qəzeti. - 2011. - 13 may. - № 17. - S. 4.

**Şəfaqət H**. Elçindən gizli Elçin... // Ədəbiyyat qəzeti. - 2018. - 4 avqust. - № 29. - S. 12-13.

**Şəmsizadə N**. Canlı klassik : Xalq yazıçısı Elçin Əfəndiyev haqqında // Xalq qəzeti. - 2013. - 12 may. - № 102. - S. 7.

**Şəmsizadə N.** Ədəbi iftixarımız : Elçin Əfəndiyev - 75 // Ədəbiyyat qəzeti. - 2018. - 5 may. - № 16. - S. 6.

**Şəmsizadə N.** İnadkar bir inamla // Ədəbiyyat qəzeti. – 1993. – 14 may. - № 19. – S. 6.

**Şükürova Z.** Baş qəhrəman insan və zaman kontekstində // Ədəbiyyat qəzeti. - 2003. – 17 yanvar.

**Tağısoy N**. Elçinin "Baş" romanı Azərbaycan ədəbi tənqidində // Kaspi. - 2017. - 13 may. - № 84. - S. 16-17.

**Tahirli A**. Onun sənət və həyat prinsipləri : Xalq yazıçısı Elçinin ad günü // 525-ci qəzet. - 2022. - 13 may. - № 82. - S. 8.

Tanıdığımız, tanımadığımız Elçin : Xalq yazıçısı Elçinin həyat və fəaliyyətini yaxından tanıyanlardan biri, filologiya elmləri doktoru, tanınmış tədqiqatçı-publisist Abid Tahirli ilə müsahibə / söhbətləşdi Q. Dünyaminqızı // Ədəbiyyat qəzeti. - 2016. - 14 may. - № 18. - S. 8-9.

**Taşdələn Y.** Elçin Əfəndiyev Ankarada // Xalq qəzeti. – 1998. – 12 aprel.

**Turan A.** Vətənin Elçini : Elçin Əfəndiyev - 75 // Ədəbiyyat qəzeti. - 2018. - 5 may. - № 16. - S.32.

**Vahabzadə B.** Ölüm hökmü! – Kimə? Nəyə? : yazıçı Elçinə məktub // Azərbaycan gəncləri. -1990. – 23 dekabr.

**Vahid Ə.** Ürək böyük olanda // Ədəbiyyat qəzeti. – 2018. – 5 may. – S. 6.

**Vahid M.** Sözlər və rənglər. Elçinin "Qatar. Pikasso. Latur. 1968" hekayəsi intermediallıq kontekstində // Ədəbiyyat qəzeti. - 2018. - 5 may. - № 16. - S.25.

**Vahid M**. Tənha quş yuva bağlamaz : esse : Elçinin "Qəbiristanlıqda məhəbbət əhvalatı" hekayəsi ("Ədəbiyyat qəzeti", 26 noyabr 2016) haqqında // Ədəbiyyat qəzeti. - 2016. - 10 dekabr. - № 48-49. - S. 10-11.

**Vahid T**. 70-ci qapı : Azərbaycan ədəbiyyatının ağır-batman, sanballı, nəhəng artilleriyalarından birinin - Xalq yazıçısı Elçinin 70 yaşı tamam olur // Mədəniyyət. - 2013. - 8 may. - № 33. - S. 7.

**Vahid T**. Qələmi və elmi ilə xalqın xidmətində : Elçin - 70 // Mədəniyyət. - 2013. - 14 iyun. - № 42. - S. 11.

**Yusifli V**. Əfəndiyevlər // Ədəbiyyat qəzeti. - 2020. - 16 may. - № 14. - S. 8-9 ; 23 may. - № 15. - S. 6-7.

**Yusifli V.** Ədəbiyyatımızın Elçini : Xalq yazıçısı, dramaturq, tənqidçi Elçin Əfəndiyevin 75 yaşı tamam olur // Mədəniyyət. - 2018. - 11 may. - № 37. - S.7.

**Yusifli V.** Kaşeyin taleyi // Kaspi. – 2016. – 23 yanvar. – S. 20.

**Tərtib etdi:** **Əkbərova Aysel**